# 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 26 dekabr 2019-cu il tarixli 02 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 20 saylı Nərimanov ikinci seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülərək təsdiq edilmiş Mahmudova Nərgiz İlqar qızı 26 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsindən namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qurbanlı Zaur Araz oğlunun namizədliyinin irəli sürülməsinin təsdiq olunması barədə 20 saylı Nərimanov ikinci seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 18 dekabr 2019-cu il tarixli 30/111 saylı qərarını mübahisələndirmiş, onun qanunsuz olduğunu iddia edərək müvafiq tədbirlər görülməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Vətəndaş N.İ.Mahmudova şikayətini belə əsaslandırmışdır ki, öz təşəbbüsü ilə deputatlığa namizədliyini 20 saylı Nərimanov ikinci seçki dairəsindən irəli sürmüş və dairə seçki komissiyasının 20 dekabr 2019-cu il tarixli qərarı ilə namizədliyinin irəli sürülməsi təsdiq edilmişdir. Namizədliyinin qeydə alınması üçün müvafiq sənədləri dairə seçki komissiyasından almaq üçün ora gələndə digər irəli sürülmüş namizədlərlə maraqlanmış və ona məlum olmuşdur ki, dairə seçki komissiyasının 18 dekabr 2019-cu il tarixli qərarı ilə Zaur Qurbanlının da namizədliyinin irəli sürülməsi təsdiq olunmuşdur. O, Z.A.Qurbanlının ağır cinayətə görə məhkum olunmasına baxmayaraq, dairə seçki komissiyası onun namizədliyinin irəli sürülməsini əsassız olaraq təsdiq etdiyi üçün komissiyanın bu qərarını qanunsuz hesab etmişdir.

N.İ.Mahmudovaya araşdırma aparılması barədə məlumat verilmiş və o, araşdırmada iştirak etməyə dəvət edilmişdir. O, müraciətini müdafiə etdiyini, araşdırmaya təqdim etmək üçün əlavə sənədə malik olmadığını və komissiyanın iclasında iştirak etməyəcəyini bildirmişdir.

Z.A.Qurbanlıya namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi barədə dairə seçki komissiyasının qərarının mübahisələndirildiyi, bununla bağlı araşdırma aparıldığı bildirilmiş və araşdırmada iştirak etməyə dəvət edilmişdir. O, telefon vasitəsilə dairə seçki komissiyasının qərarını qanuni hesab etdiyini, Prezidentin əfv haqqında sərəncamı ilə məhkum olunduğu azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsindən azad edildiyini və barəsində olan İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin və Avropa Şurası Nazirlər Komitəsinin qərarlarına əsasən məhkumluğunun olmadığını bildirmişdir. Qeyd edilən qərarların surətini elektron poçt vasitəsilə araşdırmaya təqdim etmişdir.

Z.A.Qurbanlı Mərkəzi Seçki Komissiyasının iclasına dəvət edilmiş və onun iclasda iştirakı təmin edilmişdir.

Araşdırma prosesində dairə seçki komissiyasından Z.A.Qurbanlının 20 saylı Nərimanov ikinci seçki dairəsi üzrə deputatlığa namizədliyinin irəli sürülməsinə dair sənədləri, sənədlərin qəbul olunmasına dair arayış, dairə seçki komissiyasının 18 dekabr 2019-cu il tarixli 30/111 saylı qərarı tələb edilərək araşdırılıdı.

Müəyyən edildi ki, Z.A.Qurbanlı 13 dekabr 2019-cu il tarixdə Milli Məclisə seçkilərdə öz təşəbbüsü ilə deputatlığa namizədliyini irəli sürməsi haqqında bildiriş və öhdəlik ərizəsi ilə dairə seçki komissiyasına müraciət etmişdir. Öhdəlik ərizəsində 06.05.2014-cü il tarixdə Cinayət Məcəlləsinin 228.3-cü (ağır cinayət hesab edilən) və 220.1-ci (ağır cinayət hesab edilən) maddələri ilə məhkum olunduğunu, 30.12.2014-cü il tarixdə əfv olunduğunu, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı ilə həbsinin qanunsuz sayıldığını və Azərbaycan hökumətinin bu qərarı icra etdiyini göstərmişdir.

Dairə seçki komissiyası sənədləri qəbul etdikdən sonra 14.12.2019-cu il tarixdə namizədliyini irəli sürən digər şəxslərlə birlikdə Z.A.Qurbanlı haqqında da məhkumluğun olub-olmamasına dair Nərimanov Rayon Polis İdarəsinə sorğu göndərmişdir. Lakin namizədliyin irəli sürülməsinin təsdiq olunması məsələsinə baxılması üçün qanunla nəzərdə tutulan 5 gün müddətində - 18.12.2019-cu il tarixədək həmin sorğuya cavab verilməmişdir. Dairə seçki komissiyası sədri, katibləri, üzvləri və işçi qrupun rəhbərinin izahatlarından və sənədlərin qəbul olunmasına dair arayışdan məlum olur ki, sorğuya cavab almadıqlarına və Z.A.Qurbanlının 2014-cü ilin may ayında məhkum olunmasına baxmayaraq, elə həmin ilin dekabr ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə əfv olunmasını və təqdim etdiyi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin onun barəsində müvafiq qərarını nəzərə alaraq, namizədliyin irəli sürülməsinin təsdiq olunmasına dair qərar çıxarılmış, ona namizədliyin müdafiəsi üçün imza vərəqi verilmişdir.

Bununla da 20 saylı Nərimanov ikinci seçki dairəsi dairə seçki komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinin II hissəsinin və Seçki Məcəlləsinin 13.3.2-ci və 53.7-ci maddələrinin tələblərini pozmuşdur. Belə ki, dairə seçki komissiyası qanunvericiliyin göstərilən tələblərinə uyğun olaraq namizədliyini irəli sürmüş vətəndaşın ağır cinayətə görə məhkumluğunun olmamasına (ödənilməsinə və ya götürülməsinə) dair rəsmi sənəd təqdim edildikdən sonra namizədliyin irəli sürülməsinin təsdiq olunması barədə qərar verməli idi.

Araşdırma ilə bağlı Nərimanov Rayon Polis İdarəsindən alınmış 27.12.2019-cu il tarixli 078-38795 saylı arayışdan da görünür ki, həqiqətən də vətəndaş Z.A.Qurbanlı 06.05.2014-cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 220.1-ci (ağır cinayət hesab edilən) və 228.3-cü (ağır cinayət hesab edilən) maddələri ilə təqsirli bilinərək səkkiz il müddətinə azadlıqdan məhrum edilmiş və Azərbaycan Respublikası Prezidentinin 29.12.2014-cü il tarixli 972 saylı Sərəncamına əsasən əfv olunaraq cəzasının çəkilməmiş hissəsindən azad olunmuşdur.

Qeyd edilməsi zəruridir ki, Z.A.Qurbanlı azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsindən 29.12.2014-cü il tarixdə azad edilsə də, qanunvericiliklə müəyyən edilmiş müddət keçmədiyindən məhkumluğu ödənilməmişdir. Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.3.4-cü maddəsinə əsasən ağır cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxs cəzanı çəkib qurtardığı gündən altı il keçdikdən sonra onun məhkumluğu ödənilmiş hesab olunur.

Cinayət Məcəlləsinin 83.4-cü maddəsində göstərilir ki, məhkum edilmiş şəxs qanunla müəyyən edilmiş qaydada vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə və yaxud cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edildikdə, məhkumluğun ödənilməsi müddəti əsas və əlavə cəzanı çəkməkdən azad edildiyi vaxtdan hesablanır.

Konstitusiyanın 56-cı maddəsinin III hissəsinə görə hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinin II hissəsində qeyd edilir ki, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər Milli Məclisə deputat seçilə bilməzlər.

Seçki Məcəlləsinin 13.3.2-ci maddəsinə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə (ağır və xüsusi ilə ağır) görə məhkum olunmuş şəxslərin Milli Məclisin deputatı seçilmək hüququ - passiv seçki hüququ yoxdur.

Seçki Məcəlləsinin 53.7-ci maddəsinə görə namizədin irəli sürülməsinin təsdiq olunmasından imtina edilməsi üçün nəzərdə tutulan əsaslardan biri də namizədlərin irəli sürülməsinin bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydasının pozulması ola bilər.

Beləliklə, müəyyən edilir ki, Z.A.Qurbanlının ödənilməmiş məhkumluğu olduğuna görə dairə seçki komissiyasının onun namizədliyinin irəli sürülməsinin təsdiq olunması barədə 18.12.2019-cu il tarixli 30/111 saylı Qərarı qanunvericiliyin tələblərinin pozulması ilə qəbul edildiyindən əsassız hesab edilərək ləğv edilməlidir.

Z.A.Qurbanlının araşdırma ilə bağlı şifahi izahatında İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin və Avropa Şurası Nazirlər Komitəsinin qərarlarına istinad etməsi ilə əlaqədar olaraq qeyd edilməlidir ki, Z.A.Qurbanlının işi ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı onun barəsində Bakı Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 6 may tarixli hökmünün qüvvədən düşməsi və bununla da onun məhkumluğunun olmaması mənasını daşıya bilməz. Məhkumluq yalnız Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ödənilmiş hesab edilə və ya götürülə bilər.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir çox qərarlarında göstərildiyi kimi, parlament seçkilərində müəyyən kateqoriya şəxslərin passiv seçki hüququnun məhdudlaşdırılması parlamentin müstəqilliyinin və seçicilərin azad seçmək hüququnun təmin edilməsi məqsədini daşıyır və dövlətlər bu sahədə müvafiq tələblər müəyyən edə bilər.

Beləliklə, ağır cinayətə görə ödənilməmiş və ya götürülməmiş məhkumluğun mövcud olması namizədliyin irəli sürülməsinin təsdiq olunmasını istisna edir.

Seçki komissiyaları Azərbaycan Respublikasının qanunvericiliyini rəhbər tutaraq onlara təqdim edilmiş sənədlərə əsasən qərar qəbul etməlidirlər.

Seçki Məcəlləsinin 25.2.1-ci maddəsinə görə Mərkəzi Seçki Komissiyası seçkilərin (referendumun) hazırlanmasında və keçirilməsində vətəndaşların seçki hüquqlarına riayət olunmasına nəzarət edir, bu Məcəllənin müvafiq müddəalarının eyni cür və dürüst tətbiqini təmin edir.

Həmin Məcəllənin 112.9-cu maddəsinə görə isə yuxarı seçki komissiyası aşağı seçki komissiyasının qərarını ləğv etmək, məsələnin mahiyyəti üzrə qərar qəbul etmək və ya məsələyə yenidən baxılması haqqında göstəriş vermək hüququna malikdir.

Göstərilənlərə əsasən 20 saylı Nərimanov ikinci seçki dairəsi dairə seçki komissiyasının Z.A.Qurbanlının namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi barədə 18 dekabr 2019-cu il tarixli 30/111 saylı Qərarı Seçki Məcəlləsinin tələblərinin pozulması ilə qəbul edildiyindən şikayətin təmin edilməsi və dairə seçki komissiyasının qərarının ləğv edilməsi üçün hüquqi əsasların olduğu müəyyən edilir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı, 85-ci, Seçki Məcəlləsinin 13.3.2-ci, 19.4-cü, 25.2.1-ci, 28.2-ci, 53-cü, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 20 saylı Nərimanov ikinci seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mahmudova Nərgiz İlqar qızının 26 dekabr 2019-cu il tarixli 02 saylı müraciəti əsaslı olduğundan təmin edilsin, 20 saylı Nərimanov ikinci seçki dairəsi dairə seçki komissiyasının həmin seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qurbanlı Zaur Araz oğlunun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsinə dair 18 dekabr 2019-cu il tarixli 30/111 saylı Qərarı əsassız hesab edilərək ləğv edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*29.12.2019*

Azərbaycan.- 2019.- 30 dekabr.- S. 8.